# Azərbaycan bu il xarici siyasətdə önəmli addımlar atıb



***Avropa İttifaqı Şurasının Prezidenti ilə mənim bir neçə görüşüm olub, həm də telefon danışıqlarımız olub və əlbəttə ki, əsas mövzu Azərbaycan – Ermənistan münasibətlərinin normallaşmasıdır. Ancaq, eyni zamanda, Avropa İttifaqı –Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı geniş müzakirələr aparılır. Yaxın günlərdə Avropa İttifaqı ilə Azərbaycan arasında önəmli sənəd - enerji təhlükəsizliyi ilə bağlı sənəd imzalanacaq və bizim əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldıracaqdır.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı, 15 iyul 2022-ci il***

***İkinci Qarabağ müharibəsindən sonrakı hər ay, hər il ölkəmiz üçün bir-birindən önəmli olan siyasi hadisələrlə yadda qalır. Artıq bütün dünyada, demək olar ki, hamının təqdir etdiyi Şuşa Bəyannaməsi, IX Qlobal Bakı Forumu, Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə görüşləri, dövlət başçımıza Türk Dünyasının Ali mükafatının verilməsi, müxtəlif dövlətlər və beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq sazişlərinin imzalanması, işğaldan azad edilmiş ərazilərdə BMT rəsmilərinin də iştirak etdiyi qlobal tədbirlərin keçirilməsi, Füzuli Beynəlxalq Hava Limanının xarici təyyarələri qəbul etməsi və digər məsələlər bizim postmüharibə dövründəki uğurlarımızın tam siyahısı deyil.***

Ancaq iyulun 15-də Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə səsləndirilən çoxsaylı faktlar və rəqəmlər həmin siyahının dəqiqləşdirilməsinə kömək edə bilər. Çünki bu il bizim Qoşulmama Hərəkatındakı uğurlu sədrliyimiz 2023-cü ilə qədər yekdil fikirlə bir il uzadılıb. Bu, onu göstərir ki, ölkəmiz 120 ölkə arasında çox böyük nüfuz qazanmışdır və bizə olan inam bu illər ərzində daha da artmışdır. Dövlət başçımız xatırladır ki, biz də məsuliyyətli ölkə və Qoşulmama Hərəkatının fəal sədri olaraq bu təsisatın institusional inkişafına da böyük töhfə vermişik. Müşavirədə də qeyd edildiyi kimi, 2022-ci ildə bizim atdığımız önəmli addımlardan biri də Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması və toplantısı idi. Həmin tədbir bir daha göstərdi ki, QH-nin çox böyük potensialı var, həmrəyliyi dərinləşdirmək, əməkdaşlığı genişləndirmək və qarşılıqlı beynəlxalq dəstək üçün bu, çox önəmli platformadır. Bu, bizim təşəbbüsümüz idi və bu artıq özünü real həyatda göstərir.

Dövlət başçımız xatırlatdı ki, Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının Gənclər Platforması da yaradılır. Bakıda həmin qurumun Gənclər forumu keçiriləcək və Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi yaradılacaqdır. Yəni, Azərbaycan bütün beynəlxalq təşkilatlarla əməkdaşlıqda olduğu kimi, bu qurumla əməkdaşlıq prosesində də, öz sözünə sadiqdir.

2022-ci ilin geridə qalan aylarında İslam Əməkdaşlıq Təşkilatının yeni Baş katibi Azərbaycana səfər etmişdir. Dövlət başçımızın qeyd etdiyi kimi, biz bu təşkilatla çox fəal əməkdaşlıq edirik. Bizim təşəbbüsümüzlə Azərbaycanda bu təşkilatla bağlı bir çox tədbirlər keçirilmişdir. Bu dəfə isə yeni seçilmiş Baş katib, eyni zamanda, azad edilmiş torpaqlara səfər edib – Füzuliyə, Şuşaya: "Əlbəttə ki, biz görüş zamanı Ermənistanın Azərbaycana qarşı, bizim mədəni irsimizə qarşı törətdiyi vandalizm haqqında danışmışıq. Bu gün azad edilmiş torpaqlara səfər edən hər bir insan, - istər Azərbaycan vətəndaşı olsun, istər xarici vətəndaş olsun, - erməni vəhşiliyinin təzahürlərini öz gözü ilə görür. Biz İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində öz fəaliyyətimizi bundan sonra da uğurla davam etdirəcəyik".

Ulu öndər Heydər Əliyevin siyasi kursuna sədaqətimizin nəticəsidir ki, biz həm Şərqlə – İslam dünyası ilə, həm də Qərblə – bütün dini konfessiyaların təmsilçiləri ilə sıx və bərabərhüquqlu əməkdaşlıq edirik. Məsələn, bu il Avropa İttifaqı ilə əməkdaşlığımız daha fəal müstəviyə qaldırılmışdır. Biz bu qurumla yeni saziş üzərində işləyirik. Sazişin böyük hissəsi razılaşdırılıb və razılaşdırılmamış məsələlər də müzakirə olunur. Prezident ümid edir ki, yaxın gələcəkdə bütün məsələlər razılaşdırılacaq. Eləcə də, yaxın günlərdə Avropa İttifaqı ilə Azərbaycan arasında önəmli sənəd – enerji təhlükəsizliyi ilə bağlı sənəd imzalanacaq və bizim əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldıracaqdır.

Ölkəmizin ənənəvi dostluq və tərəfdaşlıq etdiyi ünvanlardan biri də Türk Dövlətləri Təşkilatıdır. Ölkəmiz bu qurum çərçivəsində hər zaman fəallıq göstərmişdir və həm təşkilat çərçivəsində, həm də üzv ölkələr arasında təmaslar genişlənir. Bu il dövlət başçımızın Türkiyə Prezidenti ilə üç görüşü olub. Prezident müşavirədə xatırlatdı ki, bu ilin aprel ayında Qırğızıstan Prezidenti Azərbaycana səfər etmişdir: "Eyni zamanda, iyun ayında mənim Özbəkistana və Türkmənistana səfərlərim olub, Özbəkistan və Türkmənistanın dövlət başçıları ilə, Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri ilə görüşlərim olub. Gələn ay Qazaxıstan Prezidentinin Azərbaycana səfəri gözlənilir. Yəni bu, sadəcə olaraq, görünən məsələlərdir və onlar göstərir ki, bu təmaslar nə qədər fəal inkişaf edir, fəal surətdə inkişaf edir. Əlbəttə, türk dövlətləri ilə əlaqələrimiz bizim üçün prioritet məsələlərdən biridir".

Eləcə də, qonşu ölkələrlə əlaqələrimiz hər zaman bizim üçün əsas prioritetlərdən biri olub və bu il bu istiqamətdə addımlar atılıb, təkcə onu demək kifayətdir ki, bu il Prezident İlham Əliyevin Rusiya, İran, Gürcüstan prezidentləri ilə keçirdiyi görüşlər regional əməkdaşlığın perspektivinin daha da aydın olacağına zəmin yaratmışdır.

Təbii ki, Azərbaycanın xarici siyasətində mühüm istiqamətlərdən biri də Amerika Birləşmiş Ştatları ilə əməkdaşlığın genişləndirilməsidir. Dövlət başçımızın dediyi kimi, 2022-ci ildə bu istiqamətdə də önəmli addımlar atılmış, yüksək vəzifəli şəxslərin qarşılıqlı səfərləri təşkil edilmişdir: "Amerika Birləşmiş Ştatlarının Prezidenti mənə iki dəfə məktub göndərmişdir – həm Müstəqillik Günü ilə bağlı, həm Bakı Enerji Həftəsinin açılışı ilə bağlı. Mənim də cavab məktublarımda və mənə göndərilən məktublarda da əlaqələrimizin önəmi xüsusilə qeyd olunmuşdur. Bu əlaqələrin həm böyük tarixi və gözəl gələcəyi var. Yəni, bir sözlə, əsas güc mərkəzləri ilə, eyni zamanda, əsas beynəlxalq təşkilatlarla, baxın, cəmi bu altı ay ərzində nə qədər böyük işlər görülüb."

Yeri gəlmişkən, biz 2020-ci ilin payızına qədər xarici siyasətimizin əsas istiqamətinin düşmən tapdağında olan ərazilərimizin işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası olduğunu deyirdiksə, 44 günlük müharibədən sonra ən mühüm məsələ sərhədlərin delimitasiya və demarkasiyasıdır. Çünki biz həmin məsələni tam təmin etməsək, Cənubi Qafqaza sülh gətirilməsi mümkün olmayacaq. Ancaq çox təəssüf ki, bu ilin altı ayında Azərbaycan–Ermənistan əlaqələrinin normallaşdırılması istiqamətində müəyyən addımlar atılsa da, hələlik real nəticələr yoxdur. Baxmayaraq ki, Vətən müharibəsindən 1 il 8 ay ötüb, ancaq əfsuslar olsun ki, Ermənistan hələ də məcburən üzərinə götürdüyü öhdəliklərini yerinə yetirmir.

Doğrudur, delimitasiya üzrə işçi qrupların birinci görüşü keçirilmişdir. Dövlət başçımız bunu müsbət addım kimi qiymətləndirir. Eləcə də Azərbaycanın təşəbbüsü ilə sülh müqaviləsinin əsasını təşkil edəcək beş əsas baza prinsipi Ermənistan tərəfindən qəbul edilib, Ermənistan rəhbərliyi rəsmən bu beş prinsipi qəbul edib. Prezident xatırladır ki, təmasda olduğum bütün tərəfmüqabillərlə müzakirələr zamanı Azərbaycanın bu təşəbbüsü təqdir olunur: " Münaqişənin məhz bu prinsiplər əsasında həll olunması demək olar ki, təsdiqləndi. Ermənistan bunu qəbul etdi və bunu rəsmən etiraf etdi. Biz bu məsələni bir neçə qonşu dövlətlə müzakirə etmişik – Türkiyə ilə, Rusiya ilə, İranla müzakirə etmişik və bu mövqe dəstəklənir. Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları – biz bu tərəfdaşlarla da bu məsələni müzakirə etmişik və faktiki olaraq indi sülh danışıqlarının başlanması üçün əsas yaradılıb".

Ancaq zaman sübut edib ki, Ermənistanın heç bir sözünə, vədinə inanmaq, bel bağlamaq mümkün deyil. Bu arqumentimizi əsaslandırmaq üçün yada salaq ki, son vaxtlar Ermənistan rəhbərliyi yenə də hansısa status haqqında danışmağa başlayıb. Halbuki, müharibəyə son qoyulanda, Ermənistan təslimolma sənədinə məcburən imza atanda bizim – Azərbaycan, Rusiya, Ermənistan rəhbərləri arasında şifahi razılaşma olmuşdur ki, status məsələsinə toxunulmur: "Ermənistan müəyyən müddət buna əməl edirdi. Ancaq son zamanlar artıq bu, adi hala çevrilib. Gah onların baş naziri, gah xarici işlər naziri Qarabağın statusundan danışırlar. Status hara gedib və statusa nə olub, mən müharibədən sonra demişəm, təkrarlamaq istəmirəm. Əgər Ermənistanda bunu kimsə unudubsa, təkrarlaya bilərəm. Amma hesab edirəm ki, hələlik buna ehtiyac yoxdur."

Bütün bunlar dünya ictimaiyyətinin gözü qarşısındadır və ona görə də bu ilin altı ayı ərzində ölkəmizdə hərbi sahədə müvafiq islahatlar, struktur islahatları, hərbi təhsildə islahatlar aparılıb. Təlimlərlə bağlı ciddi addımlar atılıb. Yeni silahlı birləşmələr yaradılıb. Dövlət başçımız dostlarımıza və bədxahlarımıza xatırladır ki, bu altı ayda yeni kontraktlar imzalanıb, hərbi texnika, silah-sursatlar alınır və alınacaq: "Biz ordu quruculuğu sahəsində öz işlərimizi davam etdiririk... Büdcəyə əlavələr edildi, dürüstləşmə edildi və orada hərbi xərclər əhəmiyyətli dərəcədə artırıldı. Nə üçün? Deməli, buna əsas var. Biz hərbi xərclərimizi keçən il bu ilin büdcəsi təsdiq olunanda təsbit etmişdik və hesab edirdik ki, bu, kifayətdir. Ancaq sonra, bax, dediyim məsələlərə görə və digər məsələlərə görə biz hesab edirik ki, hərbi xərcləri artırmaq lazımdır. Bu artım məhz yüksək texnoloji imkanları olan silahların alınmasına xərclənəcək".

Azərbaycan Prezidentinin bu arqumentinin isə bir açması var: "Bizim heç kəsin torpağında gözümüz yoxdur, heç kimə ərazi iddiaları etmirik. Ancaq Azərbaycan ərazisində terrorçu, təxribatçı və ya separatçı hərəkətlər davam edərsə, "dəmir yumruq" yerindədir!"

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***